Müəzzini eşitdiyinizdə, siz də onun söylədiklərini təkrar edin. Sonra mənə salavat gətirin

Abdullah bin Amr bin əl-Asdan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedyini eşitmişdir: «Müəzzini eşitdiyinizdə, siz də onun söylədiklərini təkrar edin. Sonra mənə salavat gətirin. Kim mənə bir salavat gətirirsə, Allah da bunun qarşılığında ona on salavat edər. Sonra da Allahdan mənim üçün ''Vəsiləni" istəyin. O, Cənnətdə elə bir dərəcədir ki, Allahın qullarından yalnız bir quluna yaraşır. Ümid edirəm ki, o qul, mənəm. Kim mənim üçün ''Vəsiləni'' istəyərsə şəfaət ona halal olar».

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz üçün azan verildiyi zaman müəzzini eşidən kimsənin: "Həyyə aləs-saləh, Həyyə alәl-fələh" sözləri müstəsna olmaqla söylədiyinin eynisini təkrar etməsinə yönəltmişdir. Azan eşidən kimsə müəzzinin: "Həyyə aləs-saləh, Həyyə alәl-fələh" sözlərindən sonra: "Lə həulə va lə quvvətə illə billəh" (Qüdrət və güc yalnız Allahdadır) deyir. Azan bitdikdən sonra isə Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) salavat gətirir. Kim Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) bir salavat deyərsə, bu salavat qarşılığında Uca Allah ona on salavat edər. Uca Allahın quluna salavat etməsi, yəni: o qulunu, mələklər qatında tərif etməsi anlamındadır. Sonra Uca Allahdan Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) üçün "Vəsiləni" verməsini istəməyi əmr etmişdir. O, Cənnətdəki ən uca məqamdır. O məkan, Uca Allahın bütün qulları arasında yalnız bir qula yaraşar və yalnız onun üçün asanlaşar. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) o kimsənin: "Ümid edirəm ki, o qul, mən olacağam" deyərək təvazökarlıq etmişdir. Çünki bu uca məqam bütün insanlar arasında yalnız bir insana aid olacaqsa, bu zaman bu insan Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) olmalıdır. Çünki o yaradılmışların ən fəzilətlisidir. Sonra kim, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) Vəsiləyə nail olması üçün dua edərsə, qiyamət günü o kimsəyə şəfaət edəcəyini bəyan etmişdir.

http://www.sunnah.global/hadeeth/az/show/65087